# 15 İyun Milli Qurtuluş Günüdür




Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 113 (21.774)

15 iyun 2017-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

İyunun 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yenidən qurulan Cocuq Mərcanlı kəndində görülən işlərlə tanış olub, sakinlərlə görüşüb.

Dövlət başçısının Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə səfəri yeni salınan kənd yolunun açılışı ilə başlayıb.

Prezident İlham Əliyev Cocuq Mərcanlı kəndinin bərpası çərçivəsində görülən işlərlə tanışlıq zamanı kənd sakini Oqtay Həziyevin evində olub. Ölkə rəhbəri Oqtay Həziyevin ailə üzvləri ilə söhbət edib.

Daha sonra dövlətimizin başçısı yeni inşa olunan 96 şagird yerlik məktəblə tanış olub.

Məktəbdə olarkən Prezident İlham Əliyev hərbi məktəblərin kursantlarının bir qrupu ilə görüşüb.

Prezident İlham Əliyevin tapşırığına əsasən Cocuq Mərcanlı kəndində Şuşa məscidinin bənzəri olan məscid tikilib.

Məsciddə yaradılan şəraitlə tanış olan dövlətimizin başçısına məlumat verilib ki, 50 sot ərazidə inşa edilən məscidin minarələrinin hündürlüyü 26 metrdir. Azərbaycan və Şərq memarlığının nadir incilərindən sayılan tarixi Şuşa məscidinin bənzəri olan bu dini ibadətgahda dindarlar üçün hər cür şərait yaradılıb.

Sonra Prezident İlham Əliyev kəndin ərazisini gəzib.



## V.N.Rəsulovun Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin sədri təyin edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Vaqif Nəcəfalı oğlu Rəsulov Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin sədri təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 14 iyun 2017-ci il*



## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş

İyunun 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Qazaxıstan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Beybit İsabayev ilə görüşüb.

Qonağı salamlayan Ali Məclisin Sədri Azərbaycan və Qazaxıstan xalqlarının eyni kökə malik olduğunu və ölkələrimiz arasında əlaqələrin inkişaf etdiyini diqqətə çatdırdı. Ümummilli lider Heydər Əliyevin Azərbaycan-Qazaxıstan əlaqələrinin inkişafına mühüm əhəmiyyət verdiyini xatırladan Ali Məclisin Sədri hər iki ölkə Prezidenti tərəfindən dostluq münasibətlərinin davam etdirildiyini bildirdi.

Səfir Beybit İsabayev göstərilən xoş münasibətə görə minnətdarlıq etdi. Qonaq Naxçıvan Muxtar Respublikasının inkişafının məmnunluq doğurduğunu və bunun gələcək əməkdaşlıq üçün geniş perspektivlər açdığını qeyd etdi, bu sahədə səylərini əsirgəməyəcəyini bildirdi.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan şəhərində 15 İyun – Milli Qurtuluş Günü münasibətilə yürüş keçirilmişdir





*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Tədbirlər Planına əsasən 15 İyun – Milli Qurtuluş Günü münasibətilə iyunun 14-də gənclərin Naxçıvan şəhərində yürüşü keçirilmişdir.*

Əvvəlcə yürüş iştirakçısı olan bir qrup gənc ümummilli liderimiz Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoymuşdur.

Heydər Əliyev adına Hərbi Liseyin kursantlarından, Əlahiddə Ümumqoşun Ordusunun, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının, Naxçıvan Əlahiddə Əməliyyat Briqadasının, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi Mülki Müdafiə Alayının nümunəvi bölmələrinin əsgərlərindən, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun, Təhsil, Gənclər və İdman nazirliklərinin gənc fəallarından və idmançılardan ibarət minə yaxın gənc Heydər Əliyev Muzeyinin önündən başlayaraq Heydər Əliyev prospekti boyunca Heydər Əliyev Sarayına və geriyə qədər olan yolu Hərbi Orkestrin təntənəli marş sədaları altında nizami addımlarla qət etmişlər.

Ulu öndərin ali hakimiyyətə qayıdışı ilə tarixə yazılmış Milli Qurtuluş Günü Azərbaycanı güclü əsaslara söykənən davamlı sosial-iqtisadi inkişaf yoluna çıxarmış, vətənimizi qorumağa qadir olan nizami ordu yaranmış, Azərbaycan xalqının bütövlüyü, həmrəyliyi, milli birliyi təmin edilmiş, vətəninə və dövlətinə sadiq gənclik yetişmişdir. Ümummilli liderimiz Heydər Əliyev milli qurtuluşun mükəmməl fəlsəfəsini yaratmış və onu müstəqil Azərbaycanın gələcək müqəddəratına çevirmişdir. Azərbaycan tarixinin 1969-cu ildən başlanan intibah dövrü 1993-cü ilin 15 iyununda özünün Milli Qurtuluş mərhələsinə yüksəlmişdir.

15 İyun – Milli Qurtuluş Gününə Naxçıvandan hazırlanan zəmin isə müstəqil dövlətçilik tariximizin mühüm mərhələsini təşkil edir. Ulu öndərin istər ötən əsrin 70-ci illərində Azərbaycanda həyata keçirdiyi tədbirlər, istərsə də ölkəmiz və xalqımız üçün ağır bir dövrdə – 1990-1993-cü illərdə Naxçıvanda yaşayıb siyasi fəaliyyət göstərdiyi zaman qəbul etdiyi tarixi qərarlar haqiqi dövlət müstəqilliyinin bünövrəsini yaratmışdır. Dahi şəxsiyyətin rəhbərliyi ilə Naxçıvanda müstəqilliyimizin əsas atributlarından olan Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı qəbul olunmuş, bununla da Naxçıvan Muxtar Respublikası xalqımızın suveren hüquqlarının və dövlət müstəqilliyinin bərpa edilməsi uğrunda gedən mübarizənin mərkəzinə çevrilmişdir. Xalqın təkidli tələbi ilə 1993-cü ildə yenidən ali hakimiyyətə qayıdan ümummilli lider Azərbaycanı davamlı sosial-iqtisadi inkişaf yoluna çıxarmış, dövlət müstəqilliyimiz əbədi xarakter almışdır.

Bu gün Azərbaycan, eləcə də onun Naxçıvan Muxtar Respublikası özünün inkişaf dövrünü yaşayır. Naxçıvan Muxtar Respublikasında həyata keçirilən iqtisadi islahatlar da Milli Qurtuluşdan başlanan inkişafın davamıdır. Muxtar respublika gəncliyi ulu öndər Heydər Əliyevin ideyalarına sədaqət ruhunda tərbiyə olunur, əsl vətəndaş kimi yetişir. Gənc nəslin təhsili, tərbiyəsi və sağlamlığının qorunması sahəsində kompleks tədbirlər həyata keçirilir.

15 İyun – Milli Qurtuluş Günü münasibətilə keçirilən yürüşdə zəkası və bacarığı ilə müstəqil Azərbaycanın işıqlı gələcəyini, onun inkişafını təmin edən gənclik sabaha inamla addımlayırdı.

Yürüş Naxçıvan şəhər sakinləri tərəfindən maraqla qarşılanmışdır.

**"Şərq qapısı"**

## 15 İyun Milli Qurtuluş Günüdür

# Qurtuluş yolu

***Hər bir xalqın taleyində çətin məqamlar olur. Onu bu mürəkkəb şəraitdən qurtara biləcək milli liderə, ümumxalq məhəbbəti qazanmış şəxsiyyətə zərurət də xalqın iradəsinin nəticəsi kimi meydana çıxır.***

XX əsrin doxsanıncı illərinin əvvəllərində Azərbaycan belə bir siyasi böhran vəziyyətində idi. 1991-1993-cü illərdə ölkədə hərc-mərclik, özbaşınalıq, siyasi-iqtisadi tənəzzül baş alıb gedirdi. Azərbaycan doğma torpaqlarımızın işğalı, yüzlərlə insanın şəhid olması, qaçqın və məcburi köçkün problemləri azmış kimi, siyasi qarşıdurmalar, vətəndaş müharibəsi məngənəsində də boğulurdu. Xalq Cəbhəsi-Müsavat hakimiyyəti isə ölkəyə rəhbərlik etmək iqtidarına malik deyildi. Azərbaycan sonu görünməyən dəhşətli bir uçurum – minlərlə qurbanlar bahasına qazandığı müstəqilliyini itirmək, dünya xəritəsindən silinmək təhlükəsi qarşısında qalmışdı. Belə bir vaxtda xalqın ümid dolu baxışları sövqtəbii olaraq bəşər həyatının yeni başlanğıc məskəni, qədim Nuh yurdu, görkəmli dövlət xadimi Heydər Əliyevin yaşayıb fəaliyyət göstərdiyi Naxçıvana yönəldi. Bunun da əsası vardı. Çünki ölkəni ağır vəziyyətdən yalnız əsl rəhbər xilas edə bilərdi.

Görkəmli dövlət xadimi Heydər Əliyevin ötən əsrin 70-80-ci illərində Azərbaycana rəhbərlik etdiyi dövrdə gələcək müstəqilliyin hazırlanması, milli iradə və özünüdərkin formalaşması naminə məqsədyönlü fəaliyyət göstərməsi hamıya yaxşı məlum idi. Digər tərəfdən bu dahi şəxsiyyət 1987-ci ildə Moskvada olarkən təhlükə və təhdidlərə baxmayaraq, Sovet İKP MK-nın Siyasi Bürosunun üzvlüyündən istefa verərək 20 Yanvar faciəsini törədənləri kəskin ittiham etməklə milli iradə, qətiyyətli və prinsipial mövqe, həqiqi vətənpərvərlik nümayiş etdirmişdi.

Ulu öndərin ozamankı iqtidarın ögey münasibəti ucbatından "təklənmiş ada" vəziyyətinə salınan və işğal təhlükəsi yaşayan Naxçıvanı xilas etməsi, taleyüklü tarixi qərarlar qəbul etməsi xalqın qəlbində dahi şəxsiyyətə ümid işığını daha da alovlandırmışdı. Tarixə nəzər salsaq görərik ki, Naxçıvanın işğaldan xilas edilməsi, burada iqtisadi islahatların aparılması, ilkin beynəlxalq iqtisadi əməkdaşlığın təməlinin qoyulması məhz ümummilli liderin tarixi xidmətləri idi. Hələ Sovetlər İttifaqının mövcud olduğu bir dövrdə üçrəngli dövlət bayrağının Naxçıvanda qaldırılması, muxtar respublikanın adından "Sovet Sosialist" sözlərinin çıxarılması, dünya azərbaycanlılarının həmrəyliyinin əsasının qoyulması, Naxçıvanın 1991-ci ildə Sovet İttifaqının saxlanması üçün keçirilən qanunsuz referendumda iştirak etməməsi ölkəmizin gələcək milli istiqlalına rəvac verən əsas amillər idi. Ulu öndərin rəhbərliyi ilə hələ o zaman Naxçıvanda Azərbaycanın müstəqil dövlətçilik prinsipləri işlənib hazırlanırdı. Muxtar respublikada ərazinin bütövlüyü, sosial-iqtisadi müdafiəsi, cəmiyyət quruculuğu baxımından qazanılan əhəmiyyətli uğurları, ən əsası isə xalq-rəhbər birliyinin qısa zaman kəsiyində nələrə qadir olduğunu görən müdrik Azərbaycan xalqı da bütün bunların Azərbaycan siyasi mühitində həyata keçirilməsi tələbi ilə ayağa qalxdı.

Bu ümumxalq tələbini gerçəkləşdirmək üçün Azərbaycanın nüfuzlu ziyalıları – alimlər, müəllimlər, jurnalistlər, hüquqşünaslar, həkimlər 1992-ci il oktyabrın 16-da ulu öndər Heydər Əliyevə rəsmi müraciət etdi. Həmin günlərin reallıqlarını ifadə edən müraciətdə erməni təcavüzü, baş alıb gedən siyasi, iqtisadi, mənəvi böhran, sosial ədalətsizlik, rəhbərliyin siyasi naşılığı, idarəetmə səriştəsizliyi, hakimiyyət hərisliyi, iflic vəziyyətinə düşmüş ölkənin həm daxildən, həm də xaricdən müəyyən qüvvələr tərəfindən parçalanma təhlükəsi öz əksini tapmışdı. Ziyalılar ulu öndəri təkidlə ölkəyə rəhbərliyə dəvət edərək yazırdılar: *"Möhtərəm Heydər bəy! İndiki vəziyyətdə bu çətin, məsuliyyətli işi respublikada öz üzərinə götürməyə qadir yeganə şəxs Sizsiniz! Uzun illər əldə etdiyiniz dövlət quruculuğu təcrübələrinizə əsaslanaraq, Siz qısa müddətdə Azərbaycanda geniş xalq kütləsini əhatə edəcək çox böyük, güclü, nüfuzlu və işlək bir partiya yaratmağa qadirsiniz. Buna görə də Azərbaycanın, demək olar ki, bütün bölgələrində aparılan ictimai rəy sorğularının nəticələrinə və bizim təşkilat komitəsinə daxil olan minlərlə şifahi və yazılı vətəndaş təkliflərinə əsaslanaraq, belə bir qənaətə gəlirik ki, yaratmaq istədiyimiz Yeni Azərbaycan Partiyasına bu gün rəhbərlik etməyə qadir olan yeganə mütləq lider Siz ola bilərsiniz və ya yalnız bu halda, yaranmaqda olan partiya öz qarşısına qoyduğu məqsədə çatar, respublikanın bütün zümrələrindən olan xalq kütləsini öz ətrafında birləşdirərək, Azərbaycanın siyasi, iqtisadi həyatında mövcud olan boşluğu dolduracaq, dövlət quruculuğu işlərində öz layiqli töhfəsini verə biləcək".*

Ümummilli lider ziyalıların müraciətinə cavabında Azərbaycanın düşdüyü vəziyyətin köklü səbəblərini təhlil etmiş, ölkəni böhrandan xilas etməyin konsepsiyasını təqdim etmişdi. Təkcə bu tarixi sənəd deməyə kifayət edər ki, xalq müstəqil Azərbaycan dövlətinin gələcək taleyini həll etmək üçün dahi rəhbərə üz tutmaqda heç də yanılmayıb. Bu müraciət əsasında yaradılan, 700 minə yaxın siyasi həmfikri öz ətrafında birləşdirən Yeni Azərbaycan Partiyası müstəqil Azərbaycanın taleyində xüsusi əhəmiyyətə malik olan bir partiya kimi bu gün də öz liderlik missiyasını qoruyub saxlayır. Nəhayət, 1993-cü il iyunun 15-də görkəmli dövlət xadimi Heydər Əliyev xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıtmış, bununla da, ölkəmizdə milli qurtuluş hərəkatının əsası qoyulmuşdur. Azərbaycan parlamentinin iclasındakı çıxışında ulu öndər dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi özünün əsas vəzifələrindən biri hesab edərək demişdir: ***"Azərbaycan Respublikasının bugünkü ağır, mürəkkəb və gərgin vəziyyətini tam məsuliyyətlə dərk edirəm. Bu vəzifəni öz üzərimə götürərək öz məsuliyyətimi anlayıram və bunların hamısını rəhbər tutaraq əlimdən gələni edəcəyəm. Azərbaycan Respublikasının dövlət müstəqilliyi müasir tələblərlə, dünyada gedən proseslərlə bağlı olaraq təmin olunmalıdır. Bu sahədə mən çalışacağam və heç kəsin şübhəsi olmasın ki, ömrümün sonrakı hissəsini harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm".***

Ulu öndər Heydər Əliyev həyatı qədər sevdiyi Azərbaycanı dağılmaq və məhv olmaq təhlükəsindən qurtardı. İlk olaraq siyasi sabitliyə, milli həmrəyliyə nail oldu, torpaqlarımızın işğalının qarşısı alındı və atəşkəs elan edildi. Azərbaycanda tarixi ənənələrin, dünyəvi dəyərlərin məcmusu olan modern dövlətçilik konsepsiyası həyata keçirildi. Bir vaxtlar Azərbaycanı tanımaq belə istəməyən dünyanın əksər böyük dövlətləri artıq Azərbaycanla, onun rəhbəri ilə hesablaşmalı oldu. Ümummilli lider uğurlu daxili və xarici siyasət həyata keçirdi, Azərbaycançılıq ideologiyasını dövlət siyasəti kimi müəyyənləşdirdi. Bütün bunların sayəsində Azərbaycan Cənubi Qafqazda lider dövlətə çevrildi. Dünyanın aparıcı dövlətləri və şirkətləri siyasi sabitliyə və dinamik inkişafa nail olmuş Azərbaycanı etibarlı tərəfdaş kimi qəbul etdi, bağlanan beynəlxalq müqavilələr ölkəyə xarici investisiyanı cəlb etməklə iqtisadi tərəqqidə, əhalinin rifah halının yüksəlməsində mühüm rol oynadı. Ölkəmizdə dövlət quruculuğu prosesinə başlandı, güclü ordu yaradıldı, ölkənin demokratik prinsiplərini, insanların siyasi hüquq və azadlıqlarının toxunulmazlığını bəyan edən müstəqil Azərbaycan Respublikasının ilk milli Konstitusiyası qəbul olundu.

Qazanılan nailiyyətlərin əsasında isə ulu öndər Heydər Əliyevin Vətənə, xalqa sonsuz məhəbbəti, milli köklərə bağlılıq, tükənməz ümumxalq sevgisi dayanırdı. 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə ulu öndərin Naxçıvandan Bakıya qayıdışı məhv olmaqda olan Azərbaycanı QURTULUŞ yoluna, yeni inkişaf və intibah mərhələsinə çıxardı. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"1993-cü ilin 15 iyununa qədər Azərbaycan formal olaraq müstəqil dövlət idisə, həmin tarixdən sonra real müstəqilliyin əsası qoyuldu. 1993-cü ilə qədər Azərbaycanda hakimiyyətsizlik, siyasi hərc-mərclik, vətəndaş qarşıdurması hökm sürürdüsə, həmin tarixdən sonrakı dövr ölkəmizdə dövlət müstəqilliyinin möhkəmlənməsi ilə xarakterizə edilir. 1993-cü ildən sonra Azərbaycanın inkişafı göz qabağındadır. Əgər o vaxt Azərbaycanda xaos hökm sürürdüsə, bu gün Azərbaycanda sabitlikdir. O vaxt Azərbaycanda hərc-mərclik var idisə, bu gün Azərbaycanda əmin-amanlıqdır. O vaxt Azərbaycanın iqtisadiyyatı tənəzzülə uğrayırdısa, bu gün Azərbaycan dünyada ən dinamik inkişaf edən ölkələrdən biridir. O vaxt Azərbaycanda total böhran hökm sürürdüsə, bu gün Azərbaycan qüdrətli ölkəyə çevrilmişdir".***

Qürurla demək olar ki, ulu öndərin bizə əmanət qoyub getdiyi Azərbaycan, onun əbədiyyət qazandığı dövlət müstəqilliyi bu gün etibarlı əllərdədir. Dünya dövlətləri sırasında layiqli yerini tutan Azərbaycanın ulu öndərimiz tərəfindən müəyyənləşdirilən inkişaf xəttini hazırda ölkə başçısı cənab İlham Əliyev uğurla davam etdirir. 2003-cü ildən ötən dövrdə Azərbaycan Respublikasının beynəlxalq aləmdə mövqeləri daha da möhkəmləndirilmiş, ölkəmizin dünya dövlətləri arasında nüfuzu artmışdır. Azərbaycanın tranzit ölkəyə çevrilməsi bu qədim diyarda siyasi düşüncələrin, elmi fikirlərin, mədəniyyətlərin, dini baxışların dialoqunu baş tutmasını şərtləndirmişdir. Ölkəmizdə Azərbaycançılıq məfkurəsi dərinləşmiş, respublikamız bütün dünyada tanıdılmış, bu istiqamətdə geniş təbliğat işləri aparılmışdır. Mədəniyyət, elm, təhsil və səhiyyənin inkişafı istiqamətində görülən işlər xalqın mənəvi varlığının və milli kimliyinin qorunub saxlanmasına, bu sahələrin sıçrayışlı inkişafına təkan vermişdir. Bu gün Azərbaycan bir çox beynəlxalq əhəmiyyətli tədbirlərin nümunəvi ev sahibi və təşkilatçısıdır. Avropa Şurasında, İslam Əməkdaşlıq Təşkilatında, BMT-nin Təhlükəsizlik Şurasında, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatında, Qoşulmama Hərəkatında, YUNESKO-da, digər nüfuzlu təşkilatlarda Azərbaycanın xüsusi yeri vardır.

Naxçıvan Muxtar Respublikası da bugünkü dinamik inkişafına məhz Milli Qurtuluş yolundan keçərək nail olmuşdur. Son illər rayon mərkəzlərindən uzaq dağ kəndlərinədək hər yerdə aparılan genişmiqyaslı quruculuq prosesləri qədim Naxçıvanın hüsnünü daha da gözəlləşdirmişdir. Həyata keçirilən iqtisadi islahatlar qısa tarixi dövr ərzində muxtar respublikada makroiqtisadi sabitliyin bərqərar olunmasını təmin etmiş, iqtisadiyyatın dinamik inkişafına təkan vermiş və əhalinin həyat səviyyəsini əhəmiyyətli dərəcədə yaxşılaşdırmışdır. Naxçıvan Muxtar Respublikası müstəqil Azərbaycanın yenitipli məktəblərə, səhiyyə ocaqlarına, yeni texnologiya ilə təchiz olunmuş işlək sənaye müəssisələrinə, hər qarış torpağı əkilib-becərilən kənd təsərrüfatına malik inkişaf etmiş qabaqcıl diyarına çevrilmişdir. Əlbəttə, bütün bunlar Milli Qurtuluş Gününün bəhrələridir.

Bu gün blokada şəraitində olsa da, Naxçıvan yaşayır və inkişaf edir. Muxtar respublikanın hər bir şəhəri, qəsəbəsi, kəndi yenidən qurulur, şəhər və kəndlərimiz abadlaşıb gözəlləşir, ən ucqar dağ kəndi belə, inanılmaz dərəcədə dəyişir. Bütün bunlar xalqın xilaskarı, dahi Heydər Əliyev siyasətinin təntənəsidir.

Yaşadığımız, şahidi olduğumuz tarix özü sübut edir ki, Milli Qurtuluş Günü tərəqqi, intibah dövrünə aparan mərhələnin başlanğıcıdır. Azərbaycan Respublikasının Milli Məclisi dahi şəxsiyyətin ölkə rəhbərliyinə qayıdışı gününün rəsmi olaraq Azərbaycan xalqının Milli Qurtuluş Günü elan olunması ilə bağlı 1997-ci il 27 iyun tarixli qərar qəbul etmişdir. Xalqımız hər il bu günü ümumxalq bayramı kimi, ümummilli liderə dərin minnətdarlıq hissi ilə qeyd edir. Çünki Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin də dediyi kimi: ***"Müasir tariximiz 1993-cü ildən başlayır. O ildən Azərbaycan böyük və uğurlu yol keçmişdir, dövlətçiliyin əsasları qoyulmuşdur. Ulu öndərin xalq qarşısında göstərdiyi xidmətlər misilsizdir. Azərbaycan xalqı Heydər Əliyev siyasətinin qəlbində yaşadır və yaşadacaqdır".***

**✍ Mehriban SULTAN**

# Milli Qurtuluş Gününə həsr olunmuş tədbirlər keçirilib



***Kəngərli rayonunda keçirilən tədbirdə Yeni Azərbaycan Partiyası rayon təşkilatının sədri, Ali Məclisin deputatı Sevda Quliyeva məruzə ilə çıxış edib. Bildirib ki, dünya şöhrətli ictimai-siyasi xadim, müdrik dövlət başçısı Heydər Əliyev bütün şüurlu həyatını xalqının yaşamasına, Azərbaycanın tərəqqisinə həsr edib.***

Qeyd edilib ki, 1993-cü il iyunun 15-də müdrik siyasətçinin, təcrübəli dövlət xadiminin siyasi hakimiyyətə qayıdışı ilə Azərbaycan tarixinin Heydər Əliyev dövrü özünün yeni mərhələsinə qədəm qoydu. Bu qayıdışla ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində dönüş yarandı, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun şəkildə müstəqil dövlət quruculuğu prosesi başlandı. Beləliklə, ümummilli lider Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi ölkənin formalaşdırılmasına hesablanmışdısa, onun ikinci hakimiyyəti əsl qurtuluş erasını yaratdı.

Vurğulanıb ki, qədirbilən xalqımız ulu öndərin Azərbaycan dövləti və millətinin xoşbəxt gələcəyi naminə gördüyü işləri heç zaman unutmayacaqdır. Çünki bugünkü müstəqil, güclü Azərbaycan ümummilli liderimiz Heydər Əliyevin şah əsəridir. Bu gün ulu öndərin siyasi xətti Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Diqqətə çatdırılıb ki, Naxçıvan Muxtar Respublikası da Milli Qurtuluşun işığında inkişafın keyfiyyətcə yeni və uğurlu mərhələsinə qədəm qoyub. Bu uğurlar iqtisadi-sosial və mədəni həyatın bütün sahələrinin dinamik inkişafına təkan verib, əhalinin həyat səviyyəsini əhəmiyyətli dərəcədə yaxşılaşdırıb. Naxçıvan bu gün beynəlxalq tədbirlərin, zirvə görüşlərinin keçirildiyi, mötəbər yarışların təşkil edildiyi bir məkan kimi dünyada şöhrət qazanıb. Bütün bunlar ulu öndərin ideyalarına sədaqətin bəhrəsi, Milli Qurtuluşdan başlanan inkişafın davamıdır.

Tədbirdə Kəngərli Rayon İcra Hakimiyyəti ərazi ilk partiya təşkilatının sədri Novruz Kətənov, Qıvraq qəsəbə ərazi ilk partiya təşkilatının sədri Yunis Ələkbərov çıxış ediblər. Bildirilib ki, müstəqil Azərbaycan dövlətinin memarı olan ulu öndərimiz fəaliyyətində daim ümumxalq mənafeyindən çıxış edib və hakimiyyətdə olduğu hər iki dövrdə bu amal uğrunda bütün gücünü səfərbər edərək əlindən gələni əsirgəməyib.

Sonra rayonun ümumtəhsil məktəbləri şagirdlərinin ifasında Milli Qurtuluş Gününə həsr olunmuş şeirlər bədii qiraət edilib.

Sonda tədbir iştirakçıları Qurtuluş Gününə həsr olunmuş filmə baxıblar.

**Babək İSMAYILOV**

***Dünən Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasında 15 İyun – Milli Qurtuluş Gününə həsr edilmiş tədbir keçirilib.***



Tədbiri şuranın sədr müavini Xatirə İbrahimli açaraq bildirib ki, o dövrdə ölkəmizdə günügündən genişlənən anarxiyanın, hərc-mərcliyin qarşısı ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra alınıb, respublikamız düşdüyü bəlalardan xilas olub, inkişaf və tərəqqi yoluna qədəm qoyub. Xalqımızın dahi oğlu qısa müddətdə ölkədə baş verən vətəndaş qarşıdurmasını aradan qaldırıb, cəmiyyət həyatının bütün sahələrini əhatə edən uğurlu islahatlar həyata keçirilməsini təmin edib.

Qeyd olunub ki, məhz həmin tarixdən başlayaraq ulu öndərin müdrik daxili və xarici siyasəti nəticəsində vaxtilə Naxçıvandan başlanan hüquqi-demokratik dövlət quruculuğu, milli ordunun formalaşdırılması istiqamətində əsaslı addımlar atılıb, beynəlxalq aləmdə Azərbaycanın nüfuzunun yüksəldilməsi sahəsində böyük işlər görülüb. Ermənistanla münaqişənin dinc yolla nizama salınması, işğal edilmiş torpaqlarımızın azad olunması istiqamətində ardıcıl, fəal xarici siyasət yürüdülüb.

Vurğulanıb ki, bu gün ümummilli liderimizin siyasi xətti ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu gün Azərbaycan yeni inkişaf mərhələsinə yüksəlib, dünyada söz sahibi olan müstəqil dövlətə çevrilib.

Sonra şuranın əməkdaşlarından Nüsrəddin Əsədov, Rövşən Hüseynov, Leyla Abbasova, Eyvaz Əsgərov və Sənan Hüseynov çıxış ediblər.

**✍ Səbuhi HƏSƏNOV**

## Naxçıvanda aztəminatlı ailələrin məşğulluğu diqqət mərkəzində saxlanılır

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən iyunun 14-də Şərur, Babək, Ordubad və Culfa rayonlarından olan və uzun müddət ünvanlı dövlət sosial yardımı alan 15 aztəminatlı ailəyə fərdi təsərrüfatlarını qurmaq üçün “Simmental” cins inəklər verilmişdir.***

Bu münasibətlə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birinci müavini Azər Zeynalov çıxış edərək demişdir ki, Azərbaycan Respublikasında sosial sahədə aparılan dövlət siyasətinin əsas istiqamətlərindən birini məhz ailə siyasəti təşkil edir. Naxçıvan Muxtar Respublikasında ailələrin maddi və mənəvi tələbatlarının ödənilməsi, həyat səviyyəsinin yüksəldilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilir. Aztəminatlı ailələrin, o cümlədən Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüşlərdə sağlamlığını itirmiş və ya şəhid olmuş vətəndaşların ailələrinin mənzillə, avtomobillərlə təminatı diqqətdə saxlanılır, onların sosial müdafiəsi gücləndirilir. Ailələrin rifahının təmin olunmasında məşğulluğun rolu danılmazdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı” işaxtaranların səmərəli məşğulluğuna, əmək bazarının tələbinə uyğun peşə hazırlığının təşkilinə, işaxtaran və işsiz şəxslərin sosial müdafiəsinin güclənməsinə geniş imkanlar açmışdır.



Vurğulanmışdır ki, dövlət proqramına əsasən muxtar respublikada ailələrin özünüməşğulluğunun təmin edilməsi ilə əlaqədar ailə əməyinə əsaslanan fərdi təsərrüfatların yaradılması da diqqətdə saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən uzun müddət ünvanlı dövlət sosial yardımı alan ailələrə fərdi təsərrüfatlarını qurmaq üçün müvafiq köməklik göstərilməsi nəzərdə tutulmuşdur. Bu məqsədlə Şərur, Babək, Ordubad və Culfa rayonları üzrə aztəminatlı 15 ailə müəyyənləşdirilmiş, onlar üçün müvafiq kurs təşkil edilmişdir. Bu gün isə həmin ailələrin hər birinə bir ədəd cins inək veriləcəkdir.

Azər Zeynalov ailələri təbrik etmiş, dövlət tərəfindən onlara göstərilən bu dəstəkdən səmərəli yararlanacaqlarına, ailə təsərrüfatlarını genişləndirəcəklərinə əminliyini bildirmişdir.

Culfa rayon Yaycı kənd sakini Esmira Rəcəbova göstərilən qayğıya görə minnətdarlığını bildirmiş, ailə təsərrüfatından səmərəli yararlanacaqlarına söz vermişdir.

**“Şərq qapısı”**

## İstehsal müəssisələrinin fəal işçiləri mükafatlandırılıblar

***Muxtar respublikada fəaliyyət göstərən istehsal müəssisələrində 15 İyun – Milli Qurtuluş Günü ilə əlaqədar fərqlənən işçilərin mükafatlandırılması ilə bağlı tədbirlər keçirilib.***

“Gəmiqaya Bərəkət Qida Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyətində keçirilən tədbiri müəssisənin rəhbəri Yunis Yaqubov açaraq qeyd edib ki, 2005-ci ildən fəaliyyətə başlayan müəssisədə 215 nəfər işlə təmin edilib. Vurğulanıb ki, un məmulatları, ət və süd məhsulları istehsal edən müəssisənin əldə etdiyi nailiyyətlər öz işinə məsuliyyətlə yanaşan işçilərin zəhmətinin bəhrəsidir. Yunis Yaqubov kollektivi Milli Qurtuluş Günü münasibətilə təbrik edib.

İşçilərdən Təhminə Abbasova, Elşən İbrahimov, Qahirə Fərəcova çıxış edərək göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

Tədbirin sonunda fərqlənən işçilərə fəxri fərmanlar, pul mükafatları verilib və müəssisənin öz istehsalı olan məhsullar hədiyyə edilib.

“Ləzzət Qida Sənaye” Məhdud Məsuliyyətli Cəmiyyətinin rəhbəri Teymur Rzayev müəssisənin 1998-ci ildə təsis edildiyini və onun qida məhsullarının idxalı, istehsalı və emalı ilə məşğul olduğunu bildirib. Qeyd edib ki, hazırda müəssisədə 21 adda, 62 çeşiddə məhsul istehsal olunur. Burada 300 nəfər işlə təmin olunub.

Müəssisənin əməkdaşlarından Natiq Novruzov, Azad Rəcəbov çıxış edərək qazanılan uğurlardan danışıblar.

Sonra Milli Qurtuluş Günü münasibətilə müəssisənin, ümumilikdə, 44 nəfər fəal işçisinə fəxri fərmanlar, təşəkkürnamələr, müəssisənin öz məhsullarından ibarət hədiyyə bağlamaları verilib, onlar pulla mükafatlandırılıblar.

“Cahan Holdinq” Kommersiya Şirkətlər İttifaqında keçirilən tədbiri şirkətin aparat rəhbəri Azər Cəfərov açaraq bildirib ki, 1995-ci ildən fəaliyyətə başlayan müəssisədə hazırda 1500 nəfər işlə təmin olunub.

Diqqətə çatdırılıb ki, bu gün ölkəmizdə, o cümlədən muxtar respublikamızda qazanılan nailiyyətlərin təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub. Xalqımız böyük xilaskarının Vətən qarşısında göstərdiyi misilsiz xidmətlərini unutmur, Milli Qurtuluş Günü hər il yüksək əhval-ruhiyyə ilə qeyd edilir. Azər Cəfərov əlamətdar gün münasibətilə kollektivi təbrik edib.

Sonda fəaliyyətində fərqlənən işçilərə fəxri fərmanlar, pul mükafatları verilib və hədiyyələr təqdim olunub.

“Prestij Naxçıvan Pivəsi” Məhdud Məsuliyyətli Cəmiyyətində keçirilən tədbirdə isə müəssisənin sahibkarı Seyfəddin Rəhimov çıxış edərək bildirib ki, özəl sektora, eləcə də sahibkarlara göstərilən dövlət qayğısı sayəsində əlverişli biznes mühiti formalaşıb, bunun da nəticəsində istehsal və emal müəssisələrinin sayı artıb, ixrac imkanları genişlənib. Bu gün muxtar respublikada daxili bazarın tələbatının ödənilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir, məhsulun keyfiyyətinə diqqət yetirilir.

Tədbirdə fəaliyyətində fərqlənən işçilərə fəxri fərmanlar, pul mükafatları və hədiyyələr verilib.

“Hilal” ət və ət məhsulları müəssisəsində keçirilən tədbirdə çıxış edən sahibkar Fikrət Əliyarov Milli Qurtuluş Günü münasibətilə əməkdaşları təbrik edib. Qeyd edib ki, ulu öndərimizin ikinci dəfə siyasi hakimiyyətə qayıdışı ilə başlayan inkişaf prosesləri muxtar respublikamızda da tərəqqiyə qovuşdurub. Yaradılmış şərait iş adamlarının əhalinin məşğulluğuna töhfə verməsinə səbəb olub. Sonra bir qrup əməkdaş mükafatlandırılıb.

“Şərur-3” Məhdud Məsuliyyətli Cəmiyyətində hazırda günün tələbinə uyğun məhsullar istehsal edilir. Burada əməkdaşlar üçün hər cür şərait yaradılıb, onların sosial qayğılarının həlli istiqamətində bir sıra işlər görülüb.

Bu müəssisədə keçirilən tədbirdə sahibkar Zakir Məmmədov çıxış edərək Milli Qurtuluş Gününün əhəmiyyətindən danışıb, belə tədbirlərin təşkilinin əməkdaşlara stimul verəcəyini bildirib, bir neçə əməkdaşa fəxri fərman və qiymətli hədiyyələri təqdim edib.

Tədbirdə çıxış edən əməkdaşlar təşkilatçılara minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, Milli Qurtuluş Günü münasibətilə “Müasir Məkan” ət və ət məhsulları istehsal müəssisəsində, “Fərda” Şirniyyat İstehsal Müəssisəsində, “Bizim Qida” Məhdud Məsuliyyətli Cəmiyyətində də belə tədbirlər keçirilib.

**Xəbərlər şöbəsi**

## Dağlar qoynunda səfalı bir yurd yeridir

***Bir yaz günündə, səhərin erkən çağında Naxçıvan-Culfa avtomobil yolu ilə irəliləyən maşının pəncərəsindən torpağın sinəsində xalı kimi görünən ucsuz-bucaqsız taxıl zəmilərinin, xoş ətir yayan biçənəklərin, bir-birinə söykənmiş alçaq-uca təpələrin, dağların seyrinə dalmaq xoş ovqat yaradırdı. Culfa rayonunun Ərəzin, Əbrəqunus, Bənəniyar, Saltaq, Əlincə, Ərəfsə, Ləkətağ kəndlərindən keçib möhtəşəmlik rəmzi olan dağların qoynuna sığınan səfalı bir yurd yerinə – Boyəhməd kəndinə çatırıq. Rayonun bu istiqamətdəki sonuncu kəndi olan Boyəhməd füsunkar təbiəti ilə ilk baxışdan bizi heyran etdi.***

Boyəhməd Culfa rayonunun ucqar dağ kəndidir. Naxçıvan şəhərindən 57 kilometr şimal-şərqdə, Əlincə çayının sol sahilində, dəniz səviyyəsindən 2500 metr yüksəklikdə yerləşir. Rayonun Ləkətağ, Teyvaz, Ərəfsə, Ordubad rayonunun Xurs, Nürgüt və Əlahi kəndləri ilə qonşuluqda, eyni zamanda düşmənlə sərhəddə yerləşən kənd dağlarla əhatə olunub. Buranın əhalisi də dağları kimi sərtliyini qoruyaraq, illərdir ki, düşmənlə mərdliklə üzüzə dayanıb. 1340 hektara yaxın ərazisi olan Boyəhməd kəndi o qədər də böyük deyil. Təqribən 46 evi olan kənddə 340-a yaxın sakin yaşayır. Göy dağı, Yelli yurdu, Yol yurdu, Boyəhməd aşırımı, Dikdaşı kimi tanınan yer adları, buz kimi soyuq bulaqları olan Boyəhməd kəndi təbiət vurğunlarının, qonaqların ən çox xoşladıqları yaşayış məntəqəsidir. Yayda sərin havası, gözəl təbiəti, qışda ağ örpəkli dağları, dərələri buraya yolu düşənləri ovsunlayır.

Bu dağ kəndi özünün zəngin flora və faunası ilə də öyünə bilər. Canavar, ayı, tülkü, dağ keçisi, dağ qoyunu, dələ, kərkəs, dovşan və digər heyvanlar, turac, kəklik, bildirçin, çöl göyərçini, qumru və digər müxtəlif növ quşlar, eyni zamanda quzuqulağı, dağ kəvəri, əvəlik, əleyəz, şomu, baldırğan kimi yabanı yeməli bitkiləri, çobanyastığı, dəvədabanı, qatırquyruğu, səhləb, qantəpər, dazotu, solmazçiçək, daşeşən, boyaqotu kimi dərman bitkiləri bu əsrarəngiz yurd yerinin təbiətinin bəzəyidir. Burada bitən hansı otu, hansı gülüçiçəyi qoparsan, min bir dərdin dərmanıdır. Kəndin dağ yamaclarında bitən cır armudu, alması, həmərsini, qara və qırmızı yemişanı və digər meyvələri də can dərmanıdır.

Boyəhməd kəndinə şan-şöhrət gətirən onun təkcə qeyri-adi təbii gözəllikləri deyil. Həm də uzaq keçmişə şahidlik edən tarixi və vaxtilə bu ərazilərdən tapılan çox sayda maddi-mədəniyyət nümunələridir. Bu barədə ətraflı məlumat əldə etmək üçün kənd ziyalısı Ədalət Həsənovla həmsöhbət olduq. O, bizə kənd haqqında maraqlı məlumatlar verərək dedi ki, Boyəhmədin tarixi çox qədimdir. Əlincə çayı boyunca ilk məskunlaşma ərazisi bu yaşayış yeri, daha sonra isə qonşu Ləkətağ kəndi olub. Hazırda yaşadığımız Boyəhməd üçüncü məskunlaşma ərazisi olan yaşayış məskənidir. Birinci, ikinci və üçüncü Boyəhməd nekropollarında aparılan arxeoloji tədqiqatlar zamanı tapılan Orta Tunc dövrünə aid çoxlu sayda maddi-mədəniyyət nümunələri də sübut edir ki, bu ərazilərdə məskunlaşma ta o dövrlərə qədər gedib çıxır. Bununla bağlı maraqlı rəvayətləri bizimlə bölüşən Ədalət müəllim bildirdi ki, Boyəhməd kəndi Əhməd adlı sayılıb-seçilən bir kənd sakininin adı ilə bağlıdır. Son dövrlər isə “bəy” sözü “boy” sözü ilə əvəz olunaraq Boyəhməd adlandırılıb.

Həmsöhbətimdən, – “dağ kəndində yaşamaq necədir?” – soruşduqda isə belə cavab verdi ki, əlbəttə, dağ kəndində yaşamayan, dağ havasını udmayan adamlar bura gələndə deyirlər ki, siz elə burada əsl cənnətdə yaşayırsınız. Rahatçılıq, təmiz hava, su, gur bulaqlar, əsrarəngiz təbiət gözəllikləri... Adam da var deyir ki, bu dağlıq yerdə necə yaşayırsınız? Təbiətlə ünsiyyət tapa bilməyən insanların sözüdür bu. Ancaq gəlib bir bulaq başında oturanda, kəkliklərin qaqqıltısını, çoban tütəyinin səsini eşidəndə, təbiətin gözəlliyini görəndə, doğrudan da, yaşamalı yerdir, – deyirlər. Yazyay ayları Boyəhməd kəndinin ən gözəl çağlarıdır. Aran yerlərdən insanlar gəlib dağlarımızda bitən bitkilərdən yığırlar. Boyəhməddə ancaq yerli təbii nemətlərdən istifadə olunur. Bal, süd, yağ, qaymaq, pendir, şor – hamısını sakinlərimiz özü istehsal edir. Kənddə kimin qapısını açsan, səni təbii nemətlərə qonaq edər.




Havası, suyu və təbii nemətləri kəndin insanlarını uzunömürlü edib. Ədalət müəllim dedi ki, atam Xankişi Həsənov 106 il ömür yaşayıb, anam Cahan xanım 120 yaşında dünyasını dəyişib. Bu gün kənddə hər bir rahatçılıq var, yolumuz asfalt, hamının həyətinə dağ suyu gəlir, yaraşıqlı məktəbimiz, kənd mərkəzimiz var. Bütün bunlara görə dövlətimizə minnətdarlığımızı bildiririk.

Ədalət müəllim deyir ki, bu kənddə hamı təsərrüfatla məşğuldur. Onun özünün isə çoxlu arı ailəsi vardır.

Boyəhmədin Göydağında “Qarlı dərə” adlanan yerdə, elə vaxt olur ki, qar növbəti ilə də qalır. Kənd sakinləri deyirlər ki, yayın istisində kimin könlünə qar düşsə, gəlib buradan apara bilər. Qeyd edək ki, Qarlı dərədə olan Gurbulağın suyu 2004-cü ildə kəndə çəkilib. İndi kənddə hamının həyətində o sudan istifadə olunur. Tarixi yüz illərə dayanan Göydağ piri də elə Göydağın zirvəsində yerləşir. Buranı ziyarət edənlər çoxdur. Onu da bildirək ki, 1996-cı ildə kənddə dini-mənəvi dəyərlərimizə ehtiram əlaməti olaraq bir məscid də tikilib.

Bu yerlərdə dağlardan axan Sarı çeşmə, Səkil çeşmə, Arx bulaq, Soyuq bulaq, Səlbicahan bulaqlarının şırıltısı təbiətin ən gözəl səsidir. İlin bu aylarında başı həmişə qonaq-qaralı olan bu bulaqların yanında ocaq qalanır, samovar qaynadılır.

Otuz beş ildir, bu kənddə ibtidai sinif müəllimi kimi çalışan Yeganə Fətullayeva bizə şagirdlərindən və kəndin maraqlı adət-ənənələrindən söhbət açdı. Bildirdi ki, kəndimiz qonaqpərvərliyi ilə tanınır. Qonağı mehribanlıqla qarşılayıb, gülərüzlə yola salırıq. Toylarımız milli adət-ənənələrimizə uyğun keçir.

Boyəhmədli Firyəddin Hacıyevin geniş təsərrüfatı və meyvə bağı var. Hamısını da öz zəhməti ilə ərsəyə gətirib. Kənddə elə adam var ki, 8-10 baş iribuynuzlu malqara saxlayır. Zəngin otlaq sahələrimiz olduğuna görə mal-heyvanımızın əti də, ağartı məhsulları da dadlı və keyfiyyətli olur. Boyəhməddə olan sarı kərə yağı, bəlkə də, heç yerdə olmaz, çünki malheyvan təbii otlarla bəslənir.

Yaxşı bağ-bağçası olan Firyəddin dayı deyir ki, bu alma, armud, cəviz ağaclarının əziyyətini çəkib, bəhrəsini də görürəm. Kənddə o adam olmaz ki, həyətində arı pətəyi olmasın. Ötən il keçirilən bal festivalında Boyəhmədin balı da yüksək qiymətləndirilib. Burada hər kəs öz işinin ustasıdır. Baxmayaraq ki, 80 yaşım var, amma mən qocalıq nə olduğunu bilmirəm.

Uca Yaradanın əliylə dağlarına, yamaclarına min bir sığal çəkilmiş, güllərdən-çiçəklərdən rəngini-ətrini almış, sal qayalar, uca dağlar arasında yerləşən yurd yerimiz Boyəhməd geniş turizm imkanlarına malikdir. Biz isə bu gözəlliklər məskənini sevməli, onu yaxından tanımalı və Naxçıvana gələn xarici qonaqlara tanıtmalıyıq. Bu gün Boyəhməddən öyrəndiklərimizi sizə də çatdırmaq istədik. Ancaq atalar yaxşı deyib ki, yüz dəfə eşitməkdənsə, bir dəfə görmək yaxşıdır. Bir sözlə, siz də gəlin görün bu yurd yerimizi.

**Türkanə ƏMOYEVA**

## Boks üzrə yeniyetmələr arasında “Heydər Əliyev kuboku-2017” beynəlxalq turniri başa çatıb





***Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində keçirilən boks üzrə yeniyetmələr arasında “Heydər Əliyev kuboku-2017” beynəlxalq turnirinə yekun vurulub. Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası Gənclər və İdman nazirlikləri, Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası Boks federasiyalarının birgə təşkil etdikləri turnirdə Rusiya, İran, Gürcüstan, Ukrayna, Macarıstan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Azərbaycan, o cümlədən Naxçıvan Muxtar Respublikasının boksçuları da mübarizə aparıblar.***

Dörd gün davam edən yarışın dünən keçirilən final görüşlərindən sonra qaliblər müəyyənləşib. 13 çəki dərəcəsində keçirilən turnirin 9 final görüşündə azərbaycanlı dəri əlcək sahibləri mübarizə aparıblar. Maqsud Xasmetov (46 kiloqram), Rüfət Fətəliyev (48 kiloqram), Elşən Cəbizadə (57 kiloqram) və Rüfət Nəbiyev (66 kiloqram) həlledici qarşılaşmalarda qalib gəlsələr də, Əzrək Bəbirov (52 kiloqram), Ağasəlim Mustafazadə (54 kiloqram), İbrahim Cəfərzadə (63 kiloqram), Cavid Qurbanov (70 kiloqram) və Vüqar Səmədov (+80 kiloqram) məğlub olaraq beynəlxalq turniri ikinci pillədə başa vurublar.

Ümumiyyətlə, turnirə 2 komanda – Azərbaycan və Naxçıvan boksçuları ilə qatılan yığmamız 4 qızıl, 5 gümüş və 10 bürünc medal əldə edərək turnirin baş mükafatını qazanıb. Komandamızı 4 qızıl və 5 bürünc medalla Qazaxıstan yığması izləyib. İran yığmasının mükafat qazanmadığı turnirdə Özbəkistan komandası 6 (3 qızıl, 1 gümüş, 2 bürünc), Gürcüstan 6 (1 qızıl, 4 gümüş, 1 bürünc), Ukrayna 6 (1 gümüş, 5 bürünc), Qırğızıstan 4 (1 qızıl, 3 bürünc), Macarıstan 1 (1 gümüş), Rusiya 1 (1 gümüş) medala sahib olub.

Naxçıvan komandası isə turnirdə 4 müxtəlif əyarlı medal əldə edib. Ən uğurlu nəticəni 63 kiloqram çəki dərəcəsində mübarizə aparan İbrahim Cəfərzadə qazanıb. Final görüşünə kimi məğlubiyyətsiz irəliləyən boksçumuz həlledici qarşılaşmada Qazaxıstan təmsilçisi Əzəmət Bekşata məğlub olub. Digər üç idmançımız – Kənan Səfiyev (50 kiloqram), Əhməd Rzayev (52 kiloqram) və Yusif Allahverdiyev (70 kiloqram) isə bürünc medal qazanıblar.

Sonda qaliblər medal və diplomlarla mükafatlandırılıblar. Mükafatları Naxçıvan Muxtar Respublikası Boks Federasiyasının sədri Məhərrəm Talıbov, Naxçıvan Muxtar Respublikası gənclər və idman naziri Azad Cabbarov, Azərbaycan Boks Federasiyasının I vitse-prezidenti, Milli Məclisin deputatı Ağacan Əbiyev və Azərbaycan Boks Federasiyasının vitse-prezidenti Süleyman Mikayılov təqdim ediblər.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Futbol Federasiyasının birgə təşkil etdiyi futbol üzrə XV muxtar respublika çempionatına yekun vurulub.***

## Futbol üzrə muxtar respublika çempionatının qalibi “Araz-Naxçıvan” komandası olub

Çempionatın son turunda “Araz-Naxçıvan” və “Batabat” komandaları üz-üzə gəliblər. İlk hissəsi qolsuz başa çatan görüşün ikinci hissəsində daha üstün oyun sərgiləyən “qırmızı-ağlar” Amil Həsənovun qolu sayəsində meydanı qələbə ilə tərk ediblər. Bununla, üç tur öncə çempionluğunu təmin edən “Araz-Naxçıvan” ardıcıl olaraq üçüncü dəfə muxtar respublika çempionatının qalibi adını qazanıb.



Görüşdən sonra çıxış edən Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov Milli Qurtuluş Günü münasibətilə yarış iştirakçılarını təbrik edib. Bildirib ki, müstəqil Azərbaycan dövlətinin qurucusu ulu öndər Heydər Əliyev bütün sahələrlə yanaşı, idmana da xüsusi diqqət göstərirdi. Bu diqqət sayəsində idman respublikamızda yüksək sürətlə inkişaf etdi. Ulu öndərin yolunu davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin məqsədyönlü, uğurlu siyasəti nəticəsində bu inkişaf daha da sürətləndi. Artıq Azərbaycan beynəlxalq miqyasda idman sahəsində tanınan ölkələr sırasındadır. İdmançılarımız beynəlxalq yarışlarda uğurla çıxış edirlər. Bu da gənclərin bu sahəyə marağını gündən-günə artırır.

Naxçıvan Muxtar Respublikasında da idmanın inkişafı sahəsində mühüm işlərin görüldüyünü vurğulayan nazir gənclərin fiziki və mənəvi hazırlığı, asudə vaxtlarının səmərəli təşkilinin daim diqqət mərkəzində saxlanıldığını bildirib. Qeyd edib ki, muxtar respublikada müasir idman infrastrukturunun, olimpiya-idman komplekslərinin, digər obyektlərin qurulması, idmanın müxtəlif növləri üzrə federasiyaların yaradılması gənclərin idmana kütləvi şəkildə cəlb olunmasına imkan verib. Bu gün Naxçıvan Muxtar Respublikasının Futbol Federasiyası muxtar respublikada yeniyetmə və gənclərin idmanın bu növü ilə məşğul olmasında əhəmiyyətli rol oynayır.

Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov isə çıxışında futbolçulara gələcək karyeralarında uğurlar arzulayıb. Rektor gənclərin idmanın müxtəlif sahələrinə olan maraqlarının və potensiallarının aşkarlanıb düzgün istiqamətləndirilməsində mühüm rol oynayan məşqçi-müəllimlərin fəaliyyətinin əhəmiyyətini qeyd edib.

Yekun nəticələrə əsasən, “Araz-Naxçıvan” komandası çempionatın qalibi olub. Şahbuzun “Batabat” komandası ikinci, Naxçıvan Dövlət Universitetinin komandası isə üçüncü olub.

Sonda qalib komandalara diplom, kubok və hədiyyələr təqdim edilib.

✍ **Ceyhun MƏMMƏDOV**

## “Son zəng” – müstəqil həyatın astanasında

***İnsan ömrü qısadır, zaman isə bu ömrün qənimidir deyirlər. Hərdən bizə elə gəlir ki, bəzi hadisələr sanki elə bir göz qırpımındaca başlayıb və bitib. İnsanlar bu gerçəkliyi zaman-zaman yaşayırlar. Bəzən insanlar eyni anda eyni duyğuları yaşayır, eyni xatirələrin işığında keçmişə boylanırlar. Hamının ürəyindən xəbər verən cümlə eyni olur: hər şey necə də bir göz qırpımında gəlib keçdi.***

Bəli, elə anlar olur ki, istər 10 il, istərsə də onilliklərlə davam etsin, ondan geriyə qalan tək şey, sadəcə, saniyələrə sığaraq bir kinolent kimi gözünün önündə canlanacaq xatirələrdir. 11 il yaşanan məktəb həyatı kimi.

Ümumtəhsil məktəblərinin builki onbirinciləri artıq məzun oldular. Onlar bir zamanlar oturduqları partalar üçün belə, darıxacaqlar... Hələ sinif yoldaşlarını, tələbkar müəllimlərini demirəm... Onların uşaqlıq həyəcanları, sevib-sevmədikləri nə varsa, hamısı məktəb divarları arasında qalır.

***Zəng çalan, nə olar əlini saxla,***
***Bu şagird ömrümü uzat bir az da.***
***Bu məktəb, bu bina, bax bu divarlar,***
***Mənim olmayacaq zəng vurulanda.***

Zəng çalınır. Bir vaxtlar bu zəngi bir gündə dəfələrlə eşidirdilər. Fərq bunda idi ki, zəng əvvəllər ya dərsin başlanmasının xəbərçisi olaraq onları bir araya toplamış, ya da maksimum 1-2 günlüyə ayırmışdır. Əminəm ki, onlara bu dəfə fərqli hisslər yaşadırdı bu zəng. Çünki onbirincilər üçün adi zəng yox, son zəng səslənirdi. 11 il əvvəl valideynlərinin əlindən tutub bu məktəbə gətirdikləri balacalar artıq bu zəngin ayrılıq ifadə etdiyini dərk edəcək qədər böyümüşdülər.

Bu zəngin cingiltili sədaları onların hər birinin qəlbində məktəb xatirələrini oyadır: sinif yoldaşlarının gülüşləri, heç zaman bitməyəcəyini təsəvvür etdikləri dərslər, tez başa çatan tənəffüslər, ciddi və mehriban müəllimlər. Son zəng uşaqlığa son vidadır. Həyatlarının uşaqlıq dövrünə son qoyan, bir o qədər də məsuliyyətli mərhələsinə atılan ilk addımdır. Ona görə də tam olaraq kədər, göz yaşı deyil, sabaha olan çağırışdır son zəng. Şagirdləri 11 il qazandıqları bilikləri artırmağa, elmin daha uca zirvələrini fəth etməyə, bir sözlə, gələcəyə aparan sədadır.



Təhsil olmadan gələcək haqqında düşünmək mümkün deyil. Təhsilin cəmiyyətdə rolunu yüksək qiymətləndirən Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev deyib: “Azərbaycan dövlətinin əsas məqsədi gənclərimizi təhsilə, elmə cəlb etmək, təhsilin keyfiyyətini artırmaq və bu sahəni daha da inkişaf etdirməkdir”.

Muxtar respublikamızda təhsilin inkişafı sahəsində irimiqyaslı tədbirlər həyata keçirilir, hər il bu sahəyə xeyli miqdarda vəsait ayrılır. Göstərilən bu qayğı zamanla öz bəhrəsini verir. Bu il muxtar respublikamızın orta ümumtəhsil məktəblərində təhsil alan 2758 şagird məzun olur. Gələcəyimiz olan bu yeniyetmələrin hər birini qarşıda daha mənalı və məsuliyyətli bir həyat gözləyir. Biz onların orta məktəbdə yiyələndikləri biliklərlə qəbul imtahanında yaxşı nəticə göstərəcəklərinə inanırıq.

Təhsildə qazanılan uğurlar göz qabağındadır. Bu gün gənclərimizin səsi ölkə hüdudlarından kənardan gəlir. 2016-cı ildə 500-700 arası bal toplayan tələbələrlə keçirilən görüşdə iştirak edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov muxtar respublikanın ümumtəhsil məktəblərini bitirərək tələbə adını qazanmış bütün məzunları, onların müəllimlərini və valideynlərini təbrik edərək deyib: “Hər bir cəmiyyət inkişaf etmək, irəli getmək istəyirsə, ilk növbədə təhsilə diqqət yetirməlidir. Bəli, bir ölkənin istənilən sahədə inkişafı onun təhsili ilə bilavasitə əlaqəlidir. Sevindirici haldır ki, Azərbaycan gəncliyi onun üçün yaradılan bu şəraitdən səmərəli şəkildə istifadə edir”.

Gülay Hacızadə də dövlətimizin təhsilə göstərdiyi qayğıdan bəhrələnib, müasir tələblərə cavab verən məktəbdə oxuyub. O, Naxçıvan şəhər 12 nömrəli tam orta məktəbin bilik və bacarığı ilə fərqlənən məzunlarındandır. Onun dediklərindən:

– 11 il az deyil. Bu illər ərzində birlikdə olduğumuz müəllimlərimiz, sinif yoldaşlarımız, rəfiqələrimiz, bəlkə də, bu gündən sonra yalnız xatirə olaraq qalacaq.

Gülayın sinif rəhbəri Nurlan Əliyev qeyd edir ki, Gülay ikinci ixtisas qrupu üzrə imtahana hazırlaşır və qəbul imtahanının ilk mərhələsində 571 bal toplayıb. İkinci mərhələdə isə ondan daha yaxşı nəticə gözləyir. Gülayla yanaşı, bu ilin onbirinciləri arasında yüksək bal toplayanlar az deyil. İnanırıq ki, hamısının xoş xəbərini eşidəcəyik.

Naxçıvan şəhər 3 nömrəli tam orta məktəbin məzunu Həbib İsmayılov da öz hisslərini bizimlə bölüşdü:

– İnsanın həyatındakı əlamətdar günlərdən biri də məzun günüdür. Bizlər 11 il bir yerdə təhsil almışıq. İndi birdən-birə belə təmtəraqlı ayrılıq... Amma sonradan yeni həyat başlayacaq – universitet, tələbəlik, iş. Mən bütün məzunları təbrik edir, gələcək həyatlarında onlara uğurlar arzulayıram.

Bu gün, sadəcə, məzunlar deyil, onların valideynləri də həyəcanlıdırlar. Çox güman, övladlarının əlindən tutub məktəbə gətirdikləri ilk gün hamısının gözündə canlanır. Valideynlərdən sevinc göz yaşlarını gizlədə bilməyən Bəhriyyə Novruzova məzun anası olmasından qürurlanaraq belə dedi:

– Bir valideyn üçün övladının yaxşı təhsil alması, cəmiyyətdə yaxşı bir mövqe tutması qədər vacib heç nə ola bilməz. Hamı çalışır ki, cəmiyyətə bilikli, savadlı, faydalı bir övlad bəxş etsin. Bu gün hamı istəyir ki, övladı oxusun, ali təhsilli insan olsun. Elə uşaqların özü də təhsil dalınca qaçır, dünyagörüşlü olmaq istəyir, bir-birləri ilə rəqabət aparır. Təhsil üçün yaradılan şərait də buna imkan verir. Oğlum Həbib ikinci ixtisas qrupu üzrə ali məktəblərə qəbul imtahanlarına hazırlaşır. O, qəbul imtahanının ilkin mərhələsində 593 bal toplayıb. Arzu edirəm ki, bütün abituriyentlər yaxşı nəticə əldə edərək tələbə adını qazansınlar.

***Durub cərgə ilə müəllimlərim***
***Baxırlar üzümə sözü var kimi***
***Bu doğma, mehriban, şən baxışlara***
***Əlvida deməyə dilim gələrmi?***

Əziz məzunlar, çətin də olsa, həyat yollarında daha neçə-neçə əlvidalar deyəcəksiniz: oxuyacağınız ali təhsil ocağına, iş yerinizə, sevdiyiniz insanlara və sair. Amma əmin olun ki, dilinizə gələcək ən şirin əlvidadır doğma məktəbə əlvida. Dadı damağınızdan bir ömürboyu getməyəcək qədər şirin bir əlvida.

✍ **Fatma BABAYEVA**

***İtmişdir***

Naxçıvan şəhəri, 19-cu məhəllə, bina 5, mənzil 41-də yaşayan Hüseynova Zərifə Səyyad qızının adına olan 4961 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**

**Baş redaktor:**
MEHRİBAN SULTANOVA

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Əli Cabbarov**
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1000. Sifariş № 497**